# THE ROLE OF IRAVAN TEACHERS' SEMINARY IN THE HISTORY OF AZERBAIJAN ENLIGHTENMENT

**Farrukh Rustamov**

Dean of the Faculty of Primary Education of Azerbaijan State Pedagogical University, doctor of pedagogical sciences, professor
E-mail: farrukhrustamov@gmail.com
https://orcid.org./0000-0003-2033-1678

**Abstract.** The article discusses the role of the Iravan Teachers' Seminary in the history of Azerbaijan's education. The city of Iravan has historically been one of the great centers of science, education, and culture where Azerbaijanis live. Iravan Khanate was ruled by Azerbaijanis from 1390 to 1828. Czarist Russia, which occupied Azerbaijan, abolished the khanate and created an Armenian province here, transferred 40,000 Armenians from Iran and 84,600 Armenians from the Ottoman Empire, and settled them in these lands. Despite this, the city of Iravan has always preserved its national color. The article discusses the role of the Iravan Teachers' Seminary, which was organized in 1881, in the training of Azerbaijani teachers. The seminary has provided important services in preserving the fullness and vitality of the literary-social, scientific-cultural life in the Iravan district, dominated by Azerbaijanis, with its highly qualified national teachers with a modern worldview and way of thinking, which it has prepared for nearly 40 years, and has written memorable pages in the history of Azerbaijan's pedagogical thought. Graduates of the seminary actively participated in the opening of secular schools in the regions where Azerbaijanis live, involved school-age children in education, and made great sacrifices in the spread of education in Iravan, Nakhchivan, and other regions of Azerbaijan.

**Keywords**: Azerbaijan, Iravan Khanate, Iravan Teachers' Seminary, national textbook, national education movement, elementary school.

**To cite this article:** Rustamov F. (2022). The role of Iravan Teachers' Seminary in the history of Azerbaijan enlightenment. *Journal of Preschool and Primary Education*, Special issue – Iravan Teachers' Seminary, 2 (2022). pp. 31-57.
**Article history:** received – 18.05.2022; accepted – 28.06.2022

# AZƏRBAYCANIN MAARİFÇİLİK TARİXİNDƏ İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ ROLU

**Fərrux Rüstəmov**

ADPU-nun ibtidai təhsil fakültəsinin dekanı,
pedaqogika üzrə elmlər doktoru, professor,
E-mail: farrukhrustamov@gmail.com
https://orcid.org./0000-0003-2033-1678

**Annotasiya.** Məqalədə Azərbaycanın maarifçilik tarixində İrəvan Müəllimlər Seminariyasının rolu tədqiq olunur. İrəvan şəhəri tarixən azərbaycanlıların yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri olub. İrəvan xanlığı 1390-cı ildən 1828-ci ilədək azərbaycanlılar tərəfindən idarə olunub. Azərbaycanı işğal edən çar Rusiyası xanlığı ləğv edərək burada erməni vilayəti yaratmış, İrandan 40 min, Osmanlı dövlətindən 84 600 ermənini köçürdüb, bu torpaqlara yerləşdirmişdir. Buna baxmayaraq, İrəvan şəhəri həmişə öz milli koloritini qoruyub saxlamışdır. Məqalədə 1881-ci ildə təşkil edilən İrəvan Müəllimlər Seminariyasının azərbaycanlı müəllim kadrları hazırlığındakı roluna xüsusi diqqət yetirilir. Seminariya 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik, yüksək ixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın dolğunluğunun və canlılığının qorunub saxlanılmasında mühüm xidmətlər göstərmiş, Azərbaycanın pedaqoji fikir salnaməsinə yaddaqalan səhifələr yazmışdır. Seminariyanın məzunları azərbaycanlıların yaşadıqları bölgələrdə dünyəvi məktəblərin açılmasında, məktəbyaşlı uşaqların təhsilə cəlb edilməsində fəal iştirak etmiş, İrəvanda, Naxçıvanda və Azərbaycanın digər bölgələrində maarifin yayılmasında böyük fədakarlıqlar göstərmişlər.

**Açar sözlər:** Azərbaycan, İrəvan xanlığı, İrəvan Müəllimlər Seminariyası, milli dərslik, milli maarifçilik hərəkatı, ibtidai məktəb.

**Məqaləyə istinad:** Rüstəmov F. (2022). Azərbaycanın maarifçilik tarixində İrəvan Müəllimlər Seminariyasının rolu. *«Məktəbəqədər və ibtidai təhsil»*, Xüsusi buraxılış – İrəvan Müəllimlər Seminariyası, 2 (2022). səh. 31-57.
**Məqalə tarixçəsi:** göndərilib – 18.05.2022; qəbul edilib – 28.06.2022.

## Giriş / Introduction

Belə bir deyim var: "Hər millət gələcəyə öz tarixinin çiynində gedir". Keçmişi bilməmək yalnız indi baş verənlərin dərk olunmasına deyil, həm də gələcəyə nüfuz etmək təşəbbüslərinə mane olur. Keçmiş bu günlə bağlı olduğu kimi, gələcəklə də sıx əlaqədardır. Yalnız bu günü deyil, sabahı – gələcəyi dərindən dərk etmək, qiymətləndirmək baxımından da keçmişi yaxşı öyrənməli və sələflərimizin yaratdıqları mənəvi dəyərlərə sahib çıxmalıyıq. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 29 dekabr, 2021-ci il tarixdə imzaladığı "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam" mühüm elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi əhəmiyyət kəsb edir. Bu sərəncam İrəvan mahalında yaşayan azərbaycanlıların min illər boyu yaratdıqları tarixi irsə sahib çıxmaqla yanaşı, tarixi yaddaşımızı bərpa etməyə və strateji hədəflərə nail olmağa yönəlib.

## Əsas hissə / Main part

**Üləma, füzəla və şüəra şəhəri – İrəvan.** Zəngi çayının sahilində, dağlarla əhatə olunmuş düzənlikdə salınan qədim Azərbaycan şəhəri İrəvan bölgədə təhsil-tərbiyə mədəniyyətinin, maarifin və maarifçiliyin inkişafında mühüm rol oynamışdır. XX əsrin əvvəllərinə kimi bu şəhərdə şəhər əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil etmişdir. Erməni ensiklopediyasında da özünə yer tapan xronoloji cədvələ görə, İrəvan 438 il (1390-cı ildən 1828-ciilədək) azərbaycanlılar tərəfindən idarə olunmuşdur. 1828-ci ildə İrəvan xanlığı Rusiya tərəfindən ilhaq edildikdən sonra burada əhalinin milli tərkibi nəzərə alınmadan erməni vilayəti təşkil edilmiş, İrandan 40 min və Osmanlı dövlətindən 84 600 erməni qədim Azərbaycan torpaqlarına yerləşdirilmişdir [Şavrov N., 1901]. Ciddi demoqrafik dəyişikliklərə baxmayaraq, həmin illərdə şəhər əhalisinin 9710 nəfərindən 7331 nəfəri (75,5 %) azərbaycanlı olmuşdur [Məmmədov İ., Əsədov S.,1992]. "Üləma, füzəla və şüəra" (F.B.Köçərli) yurdu kimi tanınan İrəvan şəhəri qısa bir vaxtda ictimai-siyasi, ədəbi-bədii və pedaqoji fikrin mərkəzinə çevrilmiş, Mirzə Qədim İrəvani, Fazil İrəvani, Axund Molla Məhəmməd İrəvani, Əbülqasım İrəvani, Abbas Məhəmmədzadə, Cabbar Əsgərzadə, Mirabbas Mirbağırov, Teymur xan Makinski, Rəşid bəy İsmayılov, Nəriman bəy Nərimanbəyov, Miryusif Mirbabayev, Əkbər ağa Şeyxülislamov, Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Maqsud Məmmədov, Heydər Hüseynov, Cəfər Xəndan, Əhməd Cəmil, Mirəli Seyidov, Kamil Əliyev kimi onlarla görkəmli ziyalıların ana yurdu kimi tanınmışdır. Azərbaycan Respublikasının Prezidenti, cənab İ.Əliyevin də dediyi

kimi, "İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadıqları böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdı" ["İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncam].

**İrəvan maarifçilik mühiti.** İrəvan quberniyasında yaşayan azərbaycanlılar Bakı və Gəncə quberniyalarından sonra sayca üçüncü yeri tuturdular. Burada ənənəvi məktəb və mədrəsələrin geniş şəbəkəsi mövcud idi. İrəvan əhalisinin kameral siyahıya alınmasını həyata keçirən İ.İ.Şopenin yazdığına görə, XIX əsrin 20-ci illərinin sonunda İrəvanda səkkiz məscid fəaliyyət göstərirdi ki, bunlardan da ikisi qalanın içərisində yerləşirdi [Şopen İ., 1852].

Çar Rusiyasının İrəvan xanlığını işğal etməsindən sonra həmin məscidlərdən birindən silah, digərindən isə ərzaq anbarı kimi istifadə olunurdu. Həmin dövrdə şəhərdə Zalı xan, Novruzəli bəy, Sərtib xan, Hüseynəli xan, Hacı İmam və Hacı Cəfər bəy məscidləri fəaliyyət göstərirdi. Dörd böyük məscidin dağıdıldığını bildirən İ.İ.Şopenin məlumatına görə, şəhərdə 332 axund və molla, 105 mirzə, 188 seyid, 10 dərviş yaşayırdı [Şopen İ., 1852]. Fəaliyyət göstərən məscidlərin, demək olar ki, hamısında mollaxana (müsəlman ibtidai məktəbi), böyük məscidlərdə isə mədrəsələr fəaliyyət göstərirdi. Yalnız Hüseynqulu xan məscidində 200 şagird oxuyurdu [Şopen İ., 1852]. Azərbaycanlılar böyüməkdə olan nəslin dini təhsil almasına xüsusi diqqət yetirirdilər. Mədrəsələrdə təhsilin məzmunu, digər Şərq mədrəsələrində olduğu kimi, mürəkkəb və çətin idi. Burada ərəb dilinin qaydaları, tarix, təftil[43], təcvid[44] "Quran"ın təfsiri, hədislər, fiqh (hüquq) və məntiq, riyaziyyat, həndəsə, astronomiya, nəzəri fəlsəfə və tibb öyrədilirdi. Mədrəsələrin vahid proqramı və konkret təhsil müddəti yox idi. Təhsil müddəti tələbələrin dərsi mənimsəmə səviyyəsindən asılı idi. Mollaxanalarda isə əksinə, təhsilin məzmunu sadə idi: oxu, yazı, ərəb və fars dilləri öyrədilir, tədris "Quran"ın avazla qiraəti ilə başa çatırdı.

1830-cu ildə Cənubi Qafqazda 1134 məscid mövcud idi ki, onların da əksəriyyətinin nəzdində ya mollaxana, ya da mədrəsə fəaliyyət göstərirdi.

XIX əsrin 30-cu illərindən başlayaraq İrəvan quberniyasında dünyəvi təhsil inkişaf etməyə başlasa da, dini təhsil üstünlüyünü qoruyub saxlayırdı. 1864–1865-ci illərdə İrəvan quberniyasında 183 məscid, 70 ibadət evi azərbaycanlı əhalinin dini ehtiyaclarını təmin edirdi.

1862-ci ildə İrəvan quberniyasında 206 təhsil müəssisəsi (dini və dünyəvi) fəaliyyət göstərirdi ki, burada da 293 müəllim (azərbaycanlı, erməni və rus) dərs deyirdi. Təhsil alan şagirdlərin 4256-sı oğlan, 117-si qız idi ki, onlardan 1500 nəfərdən çoxunu müsəlmanlar (azərbaycanlılar – R.F.) təşkil edirdi [Voronov İ.,

[43] "Quran"ın mənasının başa düşülməsi

[44] "Quran"ın düzgün oxunması

1869].

QTD-nin popeçiteli 1867-ci ildə Qafqaz sərdarına yazdığı illik hesabatda bildirirdi ki, məscidlərin nəzdindəki müsəlman məktəblərinin və oradakı şagirdlərin təxmini sayını müəyyən etmək təşəbbüsümüz heç bir nəticə vermədi. Hər halda onların sayı çox böyükdür, 800-dən çox məktəb, 15 min şagird var. Onların da xeyli hissəsi İrəvan azərbaycanlılarının payına düşürdü [Əhmədov H., 2014]. 1871-ci ilin məlumatına görə, İrəvan şəhərində 11 məscid məktəbi var idi və onların sayı ildən-ilə artırdı. 1884-cü ilin məlumatına görə, İrəvan şəhərində 8 şiə məscidi, 13 ibadət evi, İrəvan qəzasında isə 25 şiə məscidi, 56 ibadət evi (2-si sünnülər üçün) fəaliyyət göstərirdi. 1879-cu ilin məlumatına görə, İrəvan şəhərindəki 12 məscid məktəbində 12 müəllim 208 şagirdin, İrəvan qəzasında isə 8 məscid məktəbində 8 müəllim 160 şagirdin təhsili ilə məşğul olurdu.

Məscid elm ocağı olmaqla yanaşı, siyasi və ictimai məsələlərin həll edildiyi, xütbələrin oxunduğu, insanların cihada çağırıldığı, dövlət başçılarına beyət edilən yer olmuşdur [Rüstəmov F., 2006]. Tanınmış ilahiyyatçı alim Hacı Sabir Həsənlinin təbirincə desək, məscid ictimai həyatda, bir növ parlament rolunu oynamışdır.

İrəvanda yeni məktəb sisteminin yaradılması XIX əsrin 30-cu illərinə təsadüf edir. Yerli xalqları itaətdə saxlamaq, ruslaşdırma və xristianlaşdırma siyasətini həyata keçirmək, çarizmin hökmranlığını möhkəmləndirmək məqsədi ilə milli ucqarlarda qəza məktəblərinin açılmasını nəzərdə tutan Zaqafqaziya məktəblərinin ilk nizamnaməsi (1829) qəbul olundu. Bu nizamnaməyə görə, cənubi Qafqazda 20 qəza məktəbinin açılması planlaşdırılırdı.

1832-ci ildə İrəvan şəhərində ilk dünyəvi məktəb – iki sinifli qəza məktəbi yaradıldı. Qəza məktəbi 1839-cu ildə üç sinifli qəza məktəbinə, 1869-cu ildə dörd sinifli progimnaziyaya, 1881-ci ildə isə gimnaziyaya çevrildi. Gimnaziyanın 600-ə yaxın azərbaycanlı məzunu olmuşdur. Görkəmli Azərbaycan maarifçisi F.B.Köçərlinin pedaqoji fəaliyyətinin on ili bu gimnaziya ilə bağlı olmuşdur. İrəvan şəhərində yeni üsulla tədrisin aparıldığı ana dilli məktəblərin meydana gəlməsi də həmin dövrə təsadüf edir. Məşədi Molla İsmayıl, Hacı Kazımov, Mirzə Kazım Əsgərzadə 1882-ci ildə, Mirzə Həsən Rüşdiyyə 1883-cü ildə Təbrizdən İrəvana gələrək, orada yeni üsullu məktəblər açdılar. İrəvan quberniyasında ildən-ilə qəza məktəblərinin və kənd ibtidai məktəblərinin yaradılması nəticəsində xalq müəllimlərinə zəruri ehtiyac yaranmışdı. O dövrdə ibtidai məktəblər üçün xalq müəllimləri seminariyalarda və müəllimlər institutlarında hazırlanırdı.

1911-ci ildə İrəvan quberniyasında 1 kişi, 2 qadın gimnaziyası, 1 qadın progimnaziyası, 1 müəllimlər seminariyası, 7 şəhər məktəbi, 158 ibtidai məktəb fəaliyyət göstərirdi. Bu məktəblərin əksəriyyətində azərbaycanlılar və ermə-

nilər birlikdə oxuyurdular. Bundan əlavə, yalnız azərbaycanlıların təhsil aldığı 11 məktəb, 1 kommersiya məktəbi və xüsusi progimnaziya fəaliyyət göstərirdi [Kavkazskiy kalendar na 1896 g., 1912]. Kişi gimnaziyasında təhsil alan 624 nəfərdən 106-sı rus, 21-i gürcü, 340-ı erməni, 123-ü azərbaycanlı, 2-si dağlı, 32-si digər millətin nümayəndələri idi [Kavkazskiy kalendar na 1913 g]. Qadın gimnaziyasında təhsil alan 462 nəfərdən 16-sı, progimnaziyada isə 252 nəfərdən 4-ü azərbaycanlı idi [Kavkazskiy kalendar na 1913 g].

İrəvan Müəllimlər Seminariyasında 128 nəfər təhsil alırdı ki, onlardan da 30 (23,4%) nəfəri azərbaycanlı, 37 (28,9 %) nəfəri erməni, 52 ( 40,6) nəfəri rus idi. Həmin dövrdə Zaqafqaziya Müəllimlər Seminariyasında 132 nəfərdən 54-ü (40,9%) [Kavkazskiy kalendar na 1913 q], İrəvan şəhər məktəbində oxuyan 152 nəfərdən 39-u azərbaycanlı idi [Məmmədov İ., Əsədov S., 1992]. İrəvan xalq məktəbləri direksiyasına tabe olan məktəblərdə oxuyan 9561 nəfər oğlandan 1580-i, 1855 qızdan 119-u azərbaycanlı idi [Kavkazskiy kalendar na 1913 g].

**Müəllim seminariyaları.** XIX əsrin 60-cı illərindən başlayaraq, Rusiyada pedaqoji təhsilin inkişafına xüsusi diqqət yetirilməyə başlandı. Bu da, hər şeydən əvvəl, ölkə daxilində həyata keçirilən siyasətlə bağlı idi. Bu dövr Rusiyada siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrini əhatə edən inqilabi hərəkat dövrü idi. 60-cı illərin pedaqoji hərəkatı o dövr ictimai hərəkatının bir hissəsi idi. Təhkimçilik hüququnun kəskin tənqidi, silki məktəb və erkən ixtisaslaşma əleyhinə çıxışlar, ümumi təhsil, qadınların təhsil hüququ uğrunda mübarizə, uşaq şəxsiyyətinə ehtiram, xalq məktəblərini çoxaltmaq tələbi XIX əsrin 60-cı illərində mütərəqqi rus pedaqoji fikir nümayəndələrinin irəli sürdüyü mühüm məsələlərdən idi. Həmin illərdə rus pedaqogikasının inkişaf istiqamətlərində bir neçə cərəyan özünü göstərirdi. Bunlardan ən mütərəqqisi *inqilabi-demokratik pedaqoji* cərəyan idi. Bu cərəyanın nümayəndələri yeni məktəblərin açılmasını, müəllim kadrlarının hazırlanmasını vacib hesab edirdilər. İlk vaxtlar müəllim kadrları Rusiyada ikiillik pedaqoji kurslarda, kilsə-müəllimlər məktəbində, gimnaziyaların nəzdindəki pedaqoji siniflərdə, müəllimlər seminariyalarında hazırlanırdı.

XIX əsrin 60-cı illərində Rusiyada müəllimlər seminariyası ən geniş yayılmış təhsil ocaqlarından biri idi. Müəllimlər seminariyasının iş planı görkəmli rus pedaqoqu K.D.Uşinski tərəfindən hazırlanmışdı. Onun hazırladığı "Müəllimlər seminariyasının layihəsi" 1861-ci ildə nəşr olunmuşdu. Bu layihədə xalq ibtidai məktəbləri üçün müəllim hazırlığının geniş planı verilmişdi. K.D.Uşinski bu əsərində Rusiyada müəllim seminariyalarının təşkilinin zəruriliyini sübut edirdi. Bu təhsil müəssisəsi xalq məktəbləri üçün müəllimlərin hazırlanması məqsədini daşıyırdı. K.D.Uşinskinin müəllim haqqında fikirləri öz ifadəsini məhz həmin layihədə tapmışdı. K.D.Uşinskiyə görə, müəllim məktəbdə mühüm simadır, onun şəxsiyyəti tərbiyədə hər şeydir, buna görə də onun elmi səviyyəsi və əxlaqi sifət-

ləri yüksək olmalıdır. O, aydın və dəqiq biliklərə malik olmalıdır.

K.D.Uşinskinin fikrincə, seminariyanın əsas vəzifəsi dövlət məktəbləri, qapalı təhsil müəssisələri üçün müəllimlər hazırlamaqdan ibarət idi. K.D.Uşinski rus pravoslav kilsəsini məktəbin əsas dayağı hesab edirdi. Əxlaq onun tərəfindən yalnız bütün rus mentalitetinə nüfuz edən pravoslavlıq çərçivəsində başa düşülürdü. Seminariyanın tədris planında ilahiyyat, hesab, qrammatika, kilsə slavyan dili, tarix, qanunvericilik, botanika və zoologiya, coğrafiya, təbiət elmləri, kənd təsərrüfatı, tibb, xəttatlıq, rəsmxət, rəsm, nəğmə fənləri vacib hesab edilirdi. Beləliklə, K.D.Uşinski bütün Rusiyada müəllim seminariyaları şəbəkəsinin yaradılması üçün zəruri olan nəzəriyyəni işləyib hazırladı.

1863-cü ildə Moskvada müəllimlər seminariyası açıldı. Burada progimnaziyalar üçün müəllim və tərbiyəçilər hazırlanırdı.1864-cü ildə Qərbi Belarusda eksperiment olaraq müəllimlər seminariyası açıldı. Həyatını ibtidai məktəblərdə işləməyə həsr etmək istəyən, pravoslav dininə mənsub olan insanların seminariyaya qəbulu planlaşdırıldı, Xalq Təhsili Nazirliyi tərəfindən seminariyalar üçün təlimat və qaydalar işlənib hazırlandı.

1870-ci ildə "Müəllimlər seminariyası haqqında əsasnamə" qəbul edildi. 1875-ci ildə seminariya ilə bağlı təlimat xarakterli sənəd nəşr olundu. Seminariyaya ikisinifli məktəbi (tədris müddəti 4 – 5 il) bitirmiş şagirdlər qəbul olunurdu. Seminariyada ümumi yataqxanalar var idi. Tələbələr ya dövlət, ya da zemstvo hesabına təhsil alırdılar. İlk vaxtlar seminariyaya yalnız oğlanlar qəbul olunurdu, sonralar qızlar üçün də seminariyalar açıldı. 1872-ci ildə Rusiyada 52 müəllimlər məktəbi və seminariya fəaliyyət göstərirdi. 1874 –1899-cu illərdə Rusiyada 23 yeni müəllimlər seminariyası açıldı.

Müəllim seminariyaları 1917-ci ilə kimi "Müəllimlər seminariyaları haqqında Əsasnamə" (1870), "Xalq Maarif Nazirliyinin müəllimlər seminariyaları haqqında təlimatı" əsasında fəaliyyət göstəriblər.

Həmin dövrdə Xalq Maarif Nazirliyi yaranma şərtinə, maliyyələşmə mənbəyinə və idarə edilməsinə görə müəllimlər seminariyasının 3 tipini müəyyən etmişdi: 1) yalnız xəzinə hesabına deyil, həm də digər mənbələr hesabına maliyyələşən dövlət müəllimlər seminariyası; 2) qeyri-ruslar üçün dövlət müəllimlər seminariyası; 3) zemstvo və özəl müəllimlər seminariyaları və məktəblər [Pruqavin A.S., 1898].

1870-ci il, noyabrın 8-də Xalq Maarif Nazirliyinin göstərişi ilə müəllim seminariyalarında hazırlıq siniflərinin açılmasına icazə verildi. Müəllim seminariyalarının və kənd müəllimlərinin nüfuzunu yüksəltmək məqsədi ilə 28 dekabr, 1871-ci ildə xüsusi fərman verildi. Fərmanda müəllimlər seminariyasının ibtidai dövlət kənd məktəbində 12 il qüsursuz işləyən məzunlarına fəxri vətəndaş adının verilməsi qərara alındı.

1896-cı ildə seminariyaların tədris planına xeyli əlavə fənlər (nəğmə, musiqi, əl əməyi, kənd təsərrüfatı) daxil edildiyindən eksperiment olaraq, 4 illik təhsilə keçildi. 1898-ci ildə müəllim seminariyalarının nəzdində bir sinifli ibtidai məktəbin əvəzinə iki sinifli məktəbin açılmasına, məzunların orta təhsil müəssisələrində sinif müəllimi köməkçisi vəzifəsi tutmasına icazə verildi.

15 oktyabr, 1898-ci ildən müəllim seminariyalarının şagirdləri üçün xüsusi geyim forması təsis edildi. Uniforma gimnaziya tələbələrinin geyiminə bənzəyirdi. Onlar, həm də papaqda metal nişan və məktəbin baş hərfləri yazılmış toqqa gəzdirirdilər. Həmin dövrdə Moskva, Peterburq, Xarkov, Kazan, Odessa təlim dairələrində xeyli müəllim seminariyaları fəaliyyət göstərsə də, onlar regionlar üzrə düzgün paylanmamışdı. Belə ki, Rusiyanın milli ucqarları bu bölgüdən kənarda qalmışdı. Yalnız yeni əsasnaməyə və 1875-ci ildə təsdiq edilmiş təlimat xarakterli məktuba əsasən, Kubanda (1871), Qoridə (1876) və İrəvanda (1881) müəllim seminariyaları açıldı.

"Qafqaz kalendarı"nda göstərilir ki, 1911-ci ildə Qafqazda 1 müəllimlər institutunda və 8 müəllimlər seminariyasında (Zaqafqaziya, Kutaisi, Stavropol, Terek, İrəvan, Yekaterinodar, 1-ci və 2-ci Kuban müəllimlər seminariyaları) 896 tələbə təhsil alırdı ki, onlardan 488-i rus,103-ü gürcü, 84-ü azərbaycanlı, 49-u erməni, 17-si dağlı, 41-i digər millətlərin nümayəndələri idi. Zaqafqaziya Müəllimlər Seminariyasında təhsil alan 56 nəfər müsəlmandan 54-ü azərbaycanlı, İrəvan Müəllimlər Seminariyasında oxuyan 30 nəfər müsəlmandan 30-u da azərbaycanlı idi ["Kavkazskiy kalendar"., 1912]. 1913-cü ildə Rusiyada fəaliyyət göstərən 128 müəllimlər seminariyasında 12190 tələbə, Qafqazdakı 9 seminariyada isə 972 nəfər oxuyurdu [Voytexovskya M., 2013]. 1914-cü ildə Rusiya imperiyasında 128 müəllimlər seminariyası fəaliyyət göstərdiyi halda, 1917-ci ildə onların sayı 192-yə çatmışdı. 1917-ci ildən sonra Rusiyada müəllimlər seminariyaları 3 illik pedaqoji kurslara, sonra isə pedaqoji texnikumlara çevrildi.

**İrəvan Müəllimlər Seminariyasının yaradılması.** Müəllimlər seminariyasının ilk əsasnaməsinə görə, bu tipli təhsil müəssisələrinə 16 yaşdan yuxarı pravoslav oğlan uşaqları qəbul oluna bilərdi. 1875-ci ildə qəbul edilən "Müəllimlər seminariyaları haqqında təlimat"da seminariyalarda pravoslavlarla yanaşı, müsəlmanların da təhsil almasına icazə verildi. 1879-cu ildə Daşkənddə Türküstan Müəllimlər Seminariyası, Orsk şəhərində Kazax Müəllimlər Seminariyası açıldı. Rusiya Dövlət Şurası 20 oktyabr, 1880-ci ildə "Kutaisi və İrəvan quberniyalarında müəllimlər seminariyalarının təşkil edilməsi haqqında" qərar qəbul etdi [Sbornik postanov., 1877].

İrəvan Müəllimlər Seminariyasına dövlət xəzinəsindən 28.350 rubl. vəsaitin ayrılması nəzərdə tutulurdu. Xalq Maarif Nazirliyi tərəfindən İrəvan Müəllimlər Seminariyasının ştat cədvəli aşağıdakı kimi təsdiq olundu [Sbornik postanovle-

niy po Ministerstvu narodnogo prosvesheniya, əlavələr hissəsi].

| | | **İllik xərclər** | | | | **Siniflər və dərəcələr** | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | **Bir nəfər üçün** | | | | | | |
| | əməkdaşların sayı | əməkhaqqı | yemək üçün | mənzil üçün | **Cəmi** | vəzifəyə görə | xüsusi geyim üçün | təqaüd üçün |
| | | rubl ilə | | | | | | |
| direktor | 1 | 1200 | 1300 | dövlət mən-zili | 2500 | V | V | tədris xid-mətlərinə görə |
| ilahiyyat fənnini tədris edənlər (pravoslav, erməni-qriqorian və müsəl-man) | 3 | - | - | - | 1500 | - | - | - |
| rus və erməni dili müəllim-ləri, digər fənn müəllimləri üçün | 4 | 650 | 550 | 195 | 5580 | VIII | VIII | tədris xid-mətlərinə görə |
| tatar (Azərbaycan) dilinin tədrisinə görə | - | - | - | - | 445 | - | - | - |
| seminariyanın nəzdindəki hazırlıq sinfinin müəllimi | 1 | 650 | - | 195 | 845 | X | X | tədris xid-mətlərinə görə |
| ibtidai məktəbin müəllimi | 1 | 600 | - | 180 | 780 | X | X | tədris xid-mətlərinə görə |
| müəllimlərin seminariyada növbətçiliyinə görə | - | - | - | - | 1500 | - | - | - |
| nəğmə, musiqi, gimnastika və sənət öyrədilməsinə görə | - | - | - | - | 1200 | - | - | - |
| bağçılığın öyrədilməsinə görə | - | - | - | - | 400 | - | - | tibbi xid-mət |
| həkim | 1 | 300 | | | | VIII | VIII | tibbi xid-mət |
| katib (həm də iqtisadçı) | 1 | 500 | | | 500 | - | - | - |
| xəzinə hesabına oxuyan 50 nəfərin hər biri üçün 130 rubl. | - | - | - | - | 6500 | - | - | - |
| tədris vəsaitləri üçün | - | - | - | - | 400 | - | - | - |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| kursu bitirənlərə mükafat | - | - | - | - | 200 | - | - | - |
| dərman üçün | - | - | - | - | 200 | | | |
| kitabxana, müəllimlər üçün vəsait | - | - | - | - | 300 | - | - | - |
| müəllimlər üçün mənzilə görə | - | - | - | - | 3000 | - | - | - |
| evlərin qızdırılması, işıqlandırılması, mebellərin təmiri üçün | - | - | - | - | 1400 | - | - | - |
| xidmətçilər, dəftərxana və digər xərclər üçün | - | - | - | - | 800 | - | - | - |
| **Ümumi xərclər** | | | | | 28350 | | | |

İrəvan Müəllimlər Seminariyası 8 noyabr, 1881-ci ildə 9 müəllim, 42 şagirdlə fəaliyyətə başladı. İlk vaxtlar seminariyanın binası olmadığı üçün İrəvan Xalq Təsərrüfatı İnstitutunun indiki binasında fəaliyyətə başladı. Seminariyanın ilk direktoru görkəmli maarifçi Yakob Stepanoviç Suşevski olmuşdur [Kavkazskiy kalendar., 1881]. O, ilk illərdə seminariyanın təşkilində böyük çətinliklərlə qarşılaşmalı oldu. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin popeçitelu A.O.Çernyayevskinin seminariyaya azərbaycanlı tələbələrin cəlb edilməsində qarşılaşdığı çətinlikləri o da yaşamalı oldu. Kuban və Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının mütərəqqi ənənələrindən bəhrələnən Y.S.Şuşevski, çətinliklə də olsa, ilk tədris ilində seminariyaya 9 müəllimin, 42 şagirdin cəlb edilməsinə, maliyyə məsələlərinin həllinə nail oldu.

İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk dövrdə tədris prosesi üçün əlverişli şəraiti olmayan, illik icarə haqqı 5 min rubl olan birmərtəbəli binada yerləşmişdi. Binanın qapısının üzərində kiçik bir lövhə asılmışdı. İrəvan təhsil tarixinin tanınmış tədqiqatçısı, dos. Cəlal Allahverdiyevin araşdırmalarına görə, həmin lövhənin üzərində əski ərəb əlifbası ilə bu sözlər yazılmışdı: *“Əcəb səadətə çatdıq, görüb əsl səidi, bu zülmət içrə göründü gözə “Ziyayi-Rəşidi”* [Allahverdiyev C., 2017].

1901-ci ildə seminariyanın pedaqoji şurası təhsil müəssisəsi üçün ayrıca bina tikmək qərarına gəldi. Şəhərin yuxarı hissəsində (Daşlı küçədə) bağlarla əhatə olunmuş ərazi məktəb binası üçün ayrıldı. Bir il sonra memarlar Vasili Mirzoyan və Nikolay Kitkinin layihəsi əsasında binanın tikintisinə başlanıldı. 1905-ci ildə tikintisi başa çatan binada İrəvan Müəllimlər Seminariyası on il fəaliyyət göstərdi. 1915-ci ildə bina kazarmaya çevrildiyindən seminariya Armavirə köçürüldü. İki il müəllimlər seminariyası kimi fəaliyyət göstərən təhsil ocağı 1917-ci il, fevral burjua inqilabından sonra, Rusiya imperiyasında fəaliyyət göstərən digər seminariyalar kimi, üç illik pedaqoji kursa çevrildi. 1918-ci ildə isə öz fəaliyyə-

tini tamamilə dayandırdı.

Seminariyada ilahiyyat fənlərini P.Q.Qambarov (pravoslav), keşiş Q.Q.Amasyanç (erməni-qriqorian) və Axund Məmməd Bağır Qazızadə (islam) tədris edirdi. Axund Məmmədbağır Qazızadə həm də tatar (Azərbaycan) dili müəllimi vəzifəsində çalışırdı. 1883-cü ildə seminariyada A.A.Karamosko, İ.A.Tamamşev, S.A.Nazaryan, A.O.Raymeman, Bazılyeviç, E.K.Bayor müəllim kimi çalışırdılar. 1884-cü ildə P.Q.Qambarov keşiş A.Sokolovla əvəz olunmuş, yuxarı siniflər açıldığından yeni müəllimlər – İ.M.Klopov (rus dili və tarix), A.İ.Lyaudanski (riyaziyyat), V.Dıviçski (təbiət elmləri və coğrafiya), N.A.Suvorov (ibtidai məktəbin müdiri), S.N.Kaspadze, A.B.Zeldliç, V.V.Zauçov və b. pedaqoji fəaliyyətə cəlb edilmişdilər. 1885-ci ildə müəllimlərin sayı 12-yə, 1889-cu ildə 13-ə çatdı. Kollektivin təcrübəli, öz işini sevən müəllimlərdən təşkil edilməsi seminariyada təhsil-tərbiyə işlərinin ildən-ilə yaxşılaşmasına, onun nümunəvi tədris müəssisəsinə çevrilməsinə səbəb oldu.

Qafqazdakı digər seminariyalar kimi, İrəvan Müəllimlər Seminariyası kollektivinin də tərkibi beynəlmiləl idi. İlk təhsil ilində seminariyaya qəbul olunan 42 şagirdin 8-i rus, 28-i erməni, 6-sı azərbaycanlı idi. İkinci tədris ilində azərbaycanlıların sayı xeyli artdı. Həmin ilin sonunda tələbələrin ümumi sayı 54 nəfər olmuşdu ki, onlardan da 7-si rus, 23-ü azərbaycanlı, 23-ü isə erməni idi [İbrahimov N., 1982].

Arxiv sənədlərindən məlum olur ki, hər il 15 nəfər azərbaycanlı tələbənin İrəvan Müəllimlər Seminariyasında dövlət vəsaiti hesabına oxuması və pansionda yaşaması müəyyənləşdirilmişdi [Azərbaycan Respublikası DTA].

Seminariyada təhsil müddəti 3 il idi. Onun nəzdində hazırlıq sinfi, nümunəvi ibtidai məktəb fəaliyyət göstərirdi. Seminariya iki qrupla (böyük hazırlıq qrupu və birinci qrup) fəaliyyətə başlamışdı. 1883-cü ildə üçüncü sinif təşkil olundu.

Seminariya tələbələri pedaqoji təcrübəni həmin məktəbdə keçirdilər. Seminariyanın nəzdində pansionat (yataqxana) fəaliyyət göstərirdi. Seminariyada azərbaycanlılarla yanaşı, erməni, gürcü, rus və digər xalqların nümayəndələri də təhsil alırdılar. Seminariyanın əsasnaməsi Qori Müəllimlər Seminariyasının əsasnaməsi ilə eynilik təşkil edirdi. Digər seminariyalar kimi, İrəvan Müəllimlər Seminariyası da dörd sinifdən ibarət idi. Hər il hazırlıq qrupuna və birinci sinfə şagird qəbulu elan edilirdi. Şagirdlərin birbaşa II və III siniflərə qəbul olunmasına icazə verilmirdi. İbtidai məktəb müəllimi olmaq istəyənlər progimnaziyanın ikinci sinfinin proqramına uyğun olaraq ilahiyyat, rus dili, hesab, həndəsə, coğrafiya, tarix və biologiya fənlərindən imtahan verməli olurdular. 1883/84-cü tədris ilində hazırlıq qrupunda həftəlik dərs saatlarının miqdarı 36 saat, I sinifdə 38 saat, II sinifdə 39 saat, IV sinifdə isə 40 saat olmuşdur. Sonrakı illərdə şagirdlərin və müəllimlərin sayı artmışdı.

**Nümunə məktəbi.** Seminariyanın nəzdində nümunə məktəbi – ibtidai məktəb fəaliyyət göstərirdi. 1896-cı ildə məktəbin müəllimləri aşağıdakılar idi: N.A.Suvorov, A.İ.Sokolov (keşiş), Q.Amanasyanç (erməni-qrioqorian), Məmmədbağır Qazızadə (şəriət) [Kavkazskiy kalendar na., 1886 g].

Təhsil müddəti 3 il idi. Rus dili və hesab birinci dərəcəli fənlər hesab edildiyindən onların tədrisinə xüsusi diqqət yetirilirdi. Ana dili, nəğmə, rəsm, təbiət və digər fənlər ikinci dərəcəli fənlər hesab olunurdu. İbtidai məktəbdə şagirdlərin ətraf aləmlə tanışlığına, sinifdənxaric tədbirlərin təşkilinə, onların fiziki, əxlaqi, estetik tərbiyəsinə daha çox əhəmiyyət verilirdi. Seminaristlər ibtidai məktəbin tədbirlərində iştirak edir, şagirdlər üçün müxtəlif oyunlar təşkil edir, müəllimin ən yaxın köməkçisi olurdular. Onlar pedaqoji təcrübəni həmin məktəbdə keçirdilər. 1882/83-cü tədris ilində ibtidai məktəbdə 61 şagird təhsil alırdı ki, onlardan da 13-ü azərbaycanlı, 38-i erməni, 10-u rus millətinin nümayəndəsi idi. 1889–1900-cu illərdə şagirdlərin sayı 82 nəfərə çatmışdı. Nümunə məktəbinin müdirləri ayrı-ayrı vaxtlarda V.A.Muxin, A.Suvorov, ilk azərbaycanlı müəllimi isə Məşədi Bağır Qazızadə olmuşdur. Aşağı hazırlıq sinfində azərbaycanlı uşaqlar həftədə 5 saat rus dili, 5 saat riyaziyyat, 4 saat ilahiyyat, 2 saat tarix, 2 saat coğrafiya, 2 saat fizika, 2 saat təbiətşünaslıq, 2 saat nəğmə, 2 saat hüsnxət, 2 saat rəsm, 2 saat rəsmxət (həftədə cəmi 30 saat) öyrənirdilər. Azərbaycanlı uşaqlar rus dilini, rus adət-ənənəsini, tarixini və coğrafiyasını öyrəndikdən sonra xristian uşaqları ilə birlikdə oxuya bilərdilər. Aşağı hazırlıq sinfinə rus dilini bilməyən uşaqlar qəbul olunurdular. Azərbaycanlı şagirdlərin aşağı hazırlıq siniflərinə daxil olması və seminariyada 5 il oxuması məcburi deyildi. Siniflər komplektləşdirilərkən şagirdlərin hazırlıq səviyyələri nəzərə alınırdı. Rus dilində danışmağı bacaran, müəyyən hazırlıq səviyyəsi olan şagirdlər yuxarı hazırlıq siniflərinə, yaxud birinci sinfə qəbul edilirdilər. Seminaristlər 2-ci sinifdə 4 saat, 3-cü sinifdə 8 saat ibtidai məktəbdə təcrübədə olurdular.

Mətbuat səhifələrində Ordubad məktəbinin seminariyanın təcrübə məktəbi olması ilə bağlı yazılanlar həqiqəti əks etdirmir. Belə ki,1854-cü ildə açılan Ordubad məktəbi 1897-ci ildə 2 sinifli şəhər məktəbinə çevrilmişdi. İrəvan şəhərində qəza məktəbi, ibtidai məktəb və yaxınlıqda Uluxanlı məktəbi olduğu halda, tələbələrin İrəvan şəhərindən xeyli uzaqlıqda yerləşən Ordubad məktəbinə təcrübəyə aparılması real görünmür. Yanlışlığa əsas səbəb “Qafqaz kalendarın”da Ordubad məktəbindən bəhs edildikdən sonra İrəvan seminariyasının nəzdindəki ibtidai məktəb haqqında yazılmasıdır. İlk baxışda elə təsəvvür yaranır ki, söhbət Ordubad məktəbindən gedir. Əslində isə seminariyanın nəzdindəki ibtidai məktəbdən, onun müəllimi N.A.Suvorov, ilahiyyat müəllimləri M.K.Kapiton, Q.Amanasyanç və Məmməd Bağır Qazızadə haqqında məlumat verilir. Həmin dövrdə Ordubad məktəbində ilahiyyat müəllimi Mirzə Yəhya Səməndərov olmuşdur.

**Seminariyada təhsilin məzmunu.** Seminariyada tədris ili 38 tədris həftəsindən, təxminən 210 – 215 gündən ibarət (bayram günləri istisna olunmaqla) olurdu. Seminaristlər üç il müddətində Azərbaycan dili ilə bərabər, ilahiyyat, rus dili, riyaziyyat, tarix, coğrafiya, fizika, təbiətşünaslıq, pedaqogika, nəğmə, hüsnxət, rəsmxət, rəsm fənlərini öyrənir, gimnastika ilə məşğul olurdular. Rusiyada, digər tədris müəssisələri kimi, seminariyaların da tədris planları tez-tez dəyişdirilirdi. Məsələn, 1890-cı ildə təsdiq edilən müəllimlər seminariyasının tədris planında 1 və 2-ci siniflərdə həftədə 24, 3-cü sinifdə 20 saat tədris yükü nəzərdə tutulmuşdu.

## Müəllimlər seminariyasının 1890-cı il üçün tədris planı

| **Fənlər** | **Siniflər** | | | **Cəmi** |
|---|---|---|---|---|
| | **I** | **II** | **III** | |
| ilahiyyat | 4 | 3 | 3 | 10 |
| rus dili | 5 | 4 | 3 | 12 |
| pedaqogika və metodikanın əsasları | | 2 | 2 | 4 |
| slavyan dili | 2 | 1 | - | 3 |
| coğrafiya | 3 | 2 | 2 | 7 |
| tarix | - | 2 | 2 | 4 |
| təbiətşünaslıq | 2 | 2 | 2 | 6 |
| hesab | 3 | 2 | 2 | 7 |
| həndəsə, ölçmə, rəsmxət | 1 | 2 | 2 | 5 |
| nəğmə | 2 | 2 | 2 | 6 |
| hüsnxət | 2 | 2 | - | 4 |
| **Cəmi:** | **24** | **24** | **20** | **68** |

Gimnastika və əl işləri, yerli dillər (Azərbaycan dili, erməni dili) kimi, fakültativ məşğələlərdə öyrədilirdi.

1903-cü ildə həftəlik tədris yükləri xeyli artırıldı. Seminaristlər hazırlıq qrupunda həftədə 30, I sinifdə 31, II sinifdə 33, III sinifdə 28 saat dərs keçməli idilər.

**Müəllimlər seminariyasının 1903-cü il üçün tədris planı**

| Fənlər | Siniflər | | | | Cəmi |
|---|---|---|---|---|---|
| | Hazırlıq | I | II | III | |
| ilahiyyat | 4 | 4 | 2 | 2 | 12 |
| rus dili | 5 | 5 | 4 | 3 | 17 |
| riyaziyyat | 5 | 5 | 5 | 3 | 18 |
| tarix | 2 | 2 | 2 | 2 | 8 |
| coğrafiya | 2 | 2 | 2 | 1 | 7 |
| fizika | 2 | 2 | 2 | - | 6 |
| təbiətşünaslıq | 2 | 3 | 3 | 2 | 10 |
| pedaqogika | - | - | 3 | 3 | 6 |
| nəğmə | 2 | 2 | 2 | 2 | 8 |
| hüsnxət | 2 | 2 | 2 | - | 6 |
| rəsmxət | 2 | 2 | 1 | 1 | 6 |
| rəsm | 2 | 2 | 1 | 1 | 6 |
| məktəbdə təcrübə | - | | 4 | 8 | 12 |
| **Cəmi:** | **30** | **31** | **33** | **28** | **122** |

Cədvəldəki həftəlik saatlar tədris planının invariativ hissəsi idi, bütün müəllimlər seminariyalarında olduğu kimi istifadə edilirdi, variativ hissə isə yerli şəraitə uyğunlaşdırılır, yerli dillər (Azərbaycan dili, erməni) və könüllü olaraq xarratlıq, tərəvəzçilik, cildçilik, ipəkçilik üzrə də dərslər keçirdilər. Tədris planı eyni olduğundan müəllimlər seminariyalarının hamısında eyni fənlər tədris edilirdi, seçim yalnız əlavə peşə fənləri ilə bağlı olurdu.

| **Fənlər** | **Siniflər** | | | | **Cəmi** | 1870-ci ilin, tədris planı (hazırlıq sinfi olmadan) | 1870-ci ilin tədris planı (hazırlıq sinfi ilə birlikdə) |
|---|---|---|---|---|---|---|---|
| | **Hazırlıq** | **I** | **II** | **III** | | | |
| ilahiyyat | 4 | 4 | 2 | 2 | 12 | -2 | +2 |
| rus dili | 5 | 5 | 4 | 3 | 17 | 0 | +5 |
| riyaziyyat | 5 | 5 | 5 | 3 | 18 | +1 | +6 |
| tarix | 2 | 2 | 2 | 2 | 8 | +2 | +4 |
| coğrafiya | 2 | 2 | 2 | 1 | 7 | -2 | 0 |
| fizika | 2 | 2 | 2 | - | 6 | +4 | +6 |
| təbiətşünaslıq | 2 | 3 | 3 | 2 | 10 | +2 | +4 |
| pedaqogika | - | - | 3 | 3 | 6 | 0 | +2 |
| nəğmə | 2 | 2 | 2 | 2 | 8 | 0 | +2 |
| hüsnxət | 2 | 2 | 2 | - | 6 | +4 | +2 |
| rəsmxət | 2 | 2 | 1 | 1 | 6 | +4 | +6 |
| rəsm | 2 | 2 | 1 | 1 | 6 | - | +6 |
| məktəbdə təcrübə | - | | 4 | 8 | 12 | - | - |
| slavyan dilləri | - | - | - | - | - | -3 | -3 |
| **Cəmi:** | **30** | **31** | **33** | **28** | **122** | | |

Tədris planının xeyli zəngin olmasına baxmayaraq, seminariyanı bitirənlər həmin dövrdə təhsillərini yalnız o qədər də yüksək statusu olmayan müəllimlər institutlarında davam etdirə bilərdilər.

Yarandığı gündən funksiyası ibtidai məktəblər üçün müəllim hazırlamaq olan seminariyalar, statusuna görə, ibtidai məktəbdən yuxarı, orta məktəbdən aşağı səviyyədə idi. Ona görə də hələ 1908-ci ildə dövlətin bu siyasətini kəskin tənqid edən P.Klunnı müəllimlər institutlarının məzunlarını "universitetlərin bağlı qapılarını döyənlər" adlandırırdı [Klunnıy P., 1908]. 14 may, 1917-ci ildə müəllimlər seminariyalarının və müəllimlər institutlarının statusları müzakirə edilərək, hər iki təhsil müəssisəsinə orta məktəb statusu verildi. Həmin dövrdə İrəvan Müəllimlər Seminariyası Armavirdə fəaliyyət göstərirdi. Həmin dövrdə Rusiyada kənd məktəbləri üçün müəllim kadrları hazırlığında müəllimlər seminariyaları mühüm rol oynayırdı. Bu səbəbdən də müəllim seminariyalarının sayı ildən-ilə artırdı.

Müəllimlər seminariyası Rusiyada pedaqoji təhsilin ən kütləvi formasına

çevrilmişdi. Seminariyada pulsuz peşə təhsilinin verilməsi bu təhsil müəssisələrinin kasıb əhali, xüsusilə də kəndlilər arasında cəlbediciliyini artırmışdı. Digər tərəfdən, kənd müəllimləri vergidən və hərbi qulluqdan azad edilirdi ki, bu da onların sosial vəziyyətinin yaxşılaşmasına xeyli dərəcədə təsir göstərirdi.

1917-ci il, avqust ayının 3-dən 8-nə kimi Moskvada müəllimlər seminariyalarının nümayəndələrinin Ümumrusiya qurultayı keçirildi. Qurultayda dövlət komitəsinin üzvü N.N.İordanskinin müəllimlər seminariyalarının statusunda və tədris planında dəyişiklikləri nəzərdə tutan qanun layihəsi müzakirə edilərək təsdiq olundu. Qurultay müəllim seminariyaları üçün aşağıdakı tədris planını təsdiq etdi.

### Müəllimlər Seminariyasının 1917-ci il üçün tədris planı

| **Tədris fənləri** | **Siniflər** | | | | | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| | **Haz. s., I s.** | **I s.– II s.** | **II s.– IIIs.** | **III s.– IV s.** | **IV s.– V s.** | |
| ilahiyyat | 2 | 2 | 2 | 1 | 1 | 8/6 |
| pedaqogika | -/2 | -/2 | 2/3 | 3/3 | 3/4 | 8/14 |
| rus dili | 5 | 4 | 5 | 5 | 4 | 23/18 |
| riyaziyyat | 3 | | | 2 | 2 | 7/4 |
| cəbr | 2 | 3 | 3 | 1 | - | 9/7 |
| həndəsə və triqonometriya | 2 | 2 | 2 | 2 | 1 | 9/7 |
| tarix | 2 | 3 | 3 | 3 | 4/2 (q)[45] | 15/13 |
| coğrafiya | 2 | - | 2 | 2 | 3 | 9/7 |
| kosmoqrafiya | - | - | - | - | 1 | 1 |
| təbiətşünaslıq və kimya | 6 | 5 | 3 | 4 | 2 | 20/14 |
| fizika | - | 3 | 2 | 2 | - | 7 |
| gigiyena | - | - | - | - | 2 | 2 |
| nəğmə və musiqi | 2 | 3 | 2 | 2 | 2 | 11/9 |
| qrafik incəsənət | 3 | 3 | 2 | 2 | 1 | 11/8 |
| əl əməyi | 2 | 2 | 2 | 2 | | 8/6 |
| fiziki tapşırıqlar | 2 | 2 | 2 | 2 | 1 | 9/7 |
| praktik dərslər | - | - | - | - | 6 | 6 |
| seçmə dərslər | - | - | - | - | 3 | 3 |
| kənd təsərrüfatı | - | - | 1 | 1 | 2 | 4 |
| **Cəmi:** | **33 35** | **32 34** | **32 33** | **33 33** | **36 37** | **166/133 172** |

[45] qanunşünaslıq

Tədris planına daxil edilən fənlər həm 2 sinifli məktəbin, həm də ali ibtidai məktəbin proqram məzmununu tam əhatə edirdi. Seminaristlər rus dili, hesab, həndəsə, tarix, təbiətşünaslıq fənlərinin tədrisi metodikasını öyrənir, seminariyanın nəzdindəki məktəbdə sınaq dərsləri deyir, fiziki tapşırıqlar fənnində uşaq oyunları ilə tanış olurdular. Digər seminariyalarda olduğu kimi, İrəvan Müəllimlər Seminariyasında da yerli xalq maarif komitəsinin icazəsi ilə tələbələr ana dilini və kənd təsərrüfatı fənlərini (bağçılıq, bostançılıq və s.) öyrənirdilər.

Status genişləndiyinə görə, tədris planları da təkmilləşdirildi. Müəllimlər Seminariyasının nəzdində bir və ya iki illik hazırlıq siniflərinin, tələbələrin sayına uyğun olaraq paralel siniflərin və yataqxananın açılmasına icazə verildi. Hazırlıq siniflərinə ikisinifli ibtidai məktəbin, ikinci sinfə isə yalnız ali ibtidai məktəbin və ya ona bərabər tutulan təhsil müəssisələrinin məzunları qəbul oluna bilərdilər.

Seminariyada ana dili fənninin tədrisində həmin dövrdə İrəvan gimnaziyasında müəllim işləyən görkəmli Azərbaycan maarifçisi F.B.Köçərlinin yazdığı "Azərbaycan dili proqramı"ndan istifadə olunurdu. Həm seminariyanın nəzdindəki nümunə məktəbində, həm də gimnaziyada ilk vaxtlar müəllimlərin özlərinin hazırladığı materiallardan və M. Elxanovun "Vətən dili" dərsliyinin əlyazmasından istifadə edilirdi. Həmin dərsliyə Qori Müəllimlər Seminariyasının popeçiteli A.O.Çernyayevski, Sankt-Peterburq Universitetinin Şərq fakültəsinin dosenti V.Smirnov müsbət rəy versələr də, təəssüf ki, həmin dərslik nəşr edilmədi. Mirzə Elxanovun "Vətən dili" dərsliyi isə izsiz qalmadı. Məhz həmin dərsliyin təsiri ilə A.O.Çernyayevskinin və M.H.Rüşdiyyənin "Vətən dili" dərslikləri meydana gəldi. Sonralar həm Qori, həm də İrəvan müəllimlər seminariyalarında A.O.Çernyayevskinin "Vətən dili" dərsliyindən istifadə olunurdu.

**Təlimin təşkili.** İrəvan Müəllimlər Seminariyasında təlimin əsas təşkilati forması sinif-dərs sistemi idi. Seminariyada dərsin təşkilində daha çox kombinə edilmiş (mürəkkəb) dərs tipinə üstünlük verilirdi. Kombinə edilmiş dərslərdə eyni vaxtda təlimin bir neçə məqsədini reallaşdırmaq mümkün olurdu: tələbələrə verilən tapşırıqların yoxlanılması; aydın olmayan məsələlərin yenidən izahı, tapşırıqların müxtəlif tələbələr tərəfindən təkrar olunması; yeni mövzunun keçilmiş mövzu ilə əlaqələndirilməsi, yeni mövzunun izahı, tələbələrin yeni mövzu ilə bağlı tapşırıqları icra etmələri, ev tapşırıqlarını həll etmək üçün zəruri bacarıq və vərdişlərin aşılanması, tələbələrin fərdi qaydada qiymətləndirilməsi və s. Digər seminariyalarda olduğu kimi, burada da təlimin köməkçi formalarından (ekskursiya, ev tapşırıqları, fakültativ məşğələ, əlavə dərslər) səmərəli istifadə olunurdu. Ev tapşırıqları rüblər üzrə müəyyənləşdirilir və pedaqoji şurada təsdiq olunurdu. Bu tapşırıqlar təlim prosesində alınan bilik və bacarıqların möhkəmləndirilməsinə kömək edirdi. Əlavə dərslər fərdi və qrup şəklində olur və yaxşı mənimsənilməyən mövzuların öyrənilməsinə xidmət edirdi. Üzrlü və ya üzrsüz səbəbdən

dərsdə iştirak etməyən tələbələrin həmin mövzunu əlavə dərsdə öyrənmələrinə imkan yaradılırdı. Əlavə dərslər fərdi məsləhətləşmələrlə sıx bağlı idi. Tələbələr həm sinif mürəbbisindən, həm də növbətçi müəllimdən məsləhət ala bilərdilər. Fakültativ məşğələlər, adətən, əsas fənlərlə paralel təşkil olunur, tələbələrdə ixtisas fənləri ilə bağlı biliklərin genişlənməsinə və dərinləşməsinə, praktik bacarıq və vərdişlərin, yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək edirdi. İrəvan Müəllimlər Seminariyasında yerli dillər (Azərbaycan dili, erməni dili), cildçilik, bədii oyma, musiqi fakültativ əsaslarda öyrədilirdi.

Seminaristlərin referat yazmalarına xüsusi diqqət yetirilirdi. Referatlar pedaqoji və elmi prolemlərə həsr olunurdu. Seminaristlər müstəqil olaraq elmi ədəbiyyatı araşdırır, öz fikirlərini şərh edirdilər. Hər şənbə günü direktorun və müəllimlərin iştirakı ilə referat işləri müzakirə olunurdu. Referat işləri tələbələrdə pedaqoji işə maraq yaradır, onların zehni imkanlarını genişləndirirdi.

Seminariyada ekskursiyalardan geniş istifadə olunurdu. Məqsəd ətraf aləmi öyrənmək, İrəvan şəhərinin tarixi, mədəniyyəti, maddi dəyərləri, fauna və florası ilə tələbələri tanış etmək idi. Təlimin bu köməkçi formaları tələbələrdə ətraf aləm haqqında tam təsəvvür yaratmaqla yanaşı, onların yaradıcı qabiliyyətlərinin və mənəvi aləminin inkişafına güclü təsir göstərirdi. İnşa və referat yazmaq, dərsi konspektləşdirmək tədris prosesinin vacib hissəsi hesab olunurdu.

**Pedaqoji təcrübə.** Seminariyada gələcək ibtidai məktəb müəllimlərinin peşə hazırlığında pedaqoji təcrübənin təşkilinə xüsusi əhəmiyyət verilirdi. Seminaristlər təhsil müddətində pedaqoji peşəyə həm nəzəri, həm də praktik cəhətdən hazırlanırdılar. Təlim prosesində mütərəqqi pedaqoji ideyalarla tanış olur, fənlərin tədrisi metodikasını mənimsəyir, didaktika ilə bağlı mühazirələrdə və nümunə dərslərində iştirak edirdilər. Məsələn, pedaqogika kursunda şagirdlərin əqli inkişafı məsələləri, təlimdə əyaniliyin rolu, əxlaqi tərbiyə, didaktika, ibtidai təhsilin məzmunu, ibtidai məktəblər üçün əsas normativ sənədlər və s. öyrədilirdi. Musiqi dərslərində skripka çalmaq da öyrədilirdi. Tələbələr təlim prosesində mənimsədikləri pedaqoji bilik, bacarıq və vərdişləri pedaqoji təcrübə müddətində daha da inkişaf etdirir, əsl xalq müəllimi kimi yetişirdilər.

1917-ci ilə kimi tələbələrin pedaqoji təcrübəsi seminariyanın nəzdindəki ibtidai məktəbdə təşkil edilmişdi. Pedaqoji təcrübənin 2 sinifli məktəbdə keçirilməsi nəzərdə tutulduğundan seminariyanın nəzdindəki ibtidai məktəb 2 sinifli məktəbə çevrilmişdi. Tədris planında pedaqoji təcrübəyə xüsusi yer ayrılırdı. 1-ci sinifdə nəzəri fənlər, 2 və 3-cü siniflərdə praktik fənlər və pedaqoji təcrübə keçirilirdi. Hər tələbə 4 fəndən 5 – 6 sınaq dərsi (cəmi 20) keçməli idi. Müəllimlər seminariyasının 1903-cü ildə təsdiq olunan tədris planına görə, tələbələr məktəbdə həftədə II sinifdə 6 saat, III sinifdə 8 saat pedaqoji təcrübədə olurdular. II sinif tələbələri praktik məşğələlərdə öyrəndikləri mövzuları (dərsliklərin təhlili, nü-

munə dərslərinin icmallarının tərtibi, ilk nümunə dərsi) pedaqoji təcrübədə tətbiq edirdilər.

III sinfin praktik məşğələlərinə aşağıdakılar daxil idi:

a) ibtidai məktəb müəllimini əvəz etməyi öyrənmək;

b) ibtidai məktəbdə müstəqil dərs aparmaq;

c) dərslərin təhlilinə həsr edilmiş konfranslarda iştirak etmək;

ç) ibtidai məktəbin hər üç qrupunda sınaq dərsləri demək.

Təhlil ediləcək ibtidai sinif dərslikləri və vəsaitlər pedaqoji şura tərəfindən tövsiyə olunurdu. Tələbələr praktik məşğələlərdə təhlil etdikləri dərsliklər və vəsaitlər haqqında tədris ilinin birinci yarısında hesabat verirdilər. Bu hesabatı dinləmək üçün məktəb direktorunun, fənn müəlliminin və ibtidai məktəb müəllimlərinin iştirakı ilə konfranslar təşkil olunurdu. Hər bir tələbənin dərsliklərlə bağlı hesabatı ciddi müzakirə edilir, verilən suallar tələbələr tərəfindən cavablandırılırdı.

Yekunda fənn müəllimi deyilənləri ümumiləşdirirdi. Hesabat zamanı əsas diqqət tələbənin həmin dərsliyi necə mənimsəməsinə yönəldilirdi. Hesabatlar təxminən aşağıdakı plan üzrə hazırlanırdı:

1) dərsliyin məzmunu;

2) materialın yerləşdirilməsindəki ardıcıllıq;

3) hər hansı səbəbə görə dərsliyin üstün cəhətləri;

4) hər hansı səbəbə görə dərsliyin çatışmayan cəhətləri;

5) müəllimin dərslikdən istifadə edə bilməsi və s.

II sinif tələbələri pedaqoji təcrübə dövründə yazı, oxu, təlimdə əyanilikdən istifadə və say haqqında dərsin icmallarını təqdim etməli idilər. Tələbələrin hazırladıqları icmallar pedaqogika dərslərində müzakirə edilir, onların ən yaxşıları direktora təqdim olunurdu. Bundan sonra həmin tələbələrə ilk nümunə dərsi deməyə icazə verilirdi. Pedaqoji təcrübə müddətində tələbələrə şagirdlərlə işləmək bacarığı aşılanırdı. II sinifdə qazanılan bacarıqlar III sinifdə, pedaqoji təcrübə dövründə inkişaf etdirilirdi. Tələbələr sonuncu tədris ilinin birinci yarısında ibtidai məktəb müəlliminin köməkçisi kimi fəaliyyət göstərir, sonra isə ibtidai məktəbdə pedaqoji təcrübədə olurdular. Pedaqoji təcrübənin ilk ayında tələbələr müəllimlərin dərslərini müşahidə edir, dərsin təşkilinin prinsip və metodları ilə tanış olurdular. Sonra onlar bir həftə müəllimin köməkçisi, bir həftə təcrübəçi, bir həftə isə assistent kimi fəaliyyət göstərirdilər.

Tələbələr ibtidai məktəb müəlliminin köməkçisi kimi aşağıdakı vəzifələri həyata keçirirdilər:

1) müəllim digər təcrübəçi tələbənin dərsində iştirak edəndə onun əvəzinə dərs demək;

2) dərs başlayana kimi zəruri ləvazimatları hazırlamaq;

3) sinif jurnalında müvafiq qeydlər aparmaq;

4) tənəffüsdə uşaqların oyunlarına rəhbərlik etmək;

5) şagirdlərin yazı işlərini yoxlamaq və səhvləri düzəltmək;

6) müəllimin tədris prosesi ilə bağlı tapşırıqlarını yerinə yetirmək.

Təcrübəçi vəzifəsinə başlayan tələbənin deyəcəyi dərsin planı əvvəlcədən ibtidai məktəbin müəllimi ilə razılaşdırılırdı. Tələbənin assistent kimi vəzifəsi tələbə yoldaşının sınaq dərslərində iştirak etmək, təcrübəçinin dərslərinin uğurlu və uğursuz cəhətlərini göstərmək idi.

Pedaqoji təcrübəni uğurla başa vuran tələbələr buraxılış imtahanları ərəfəsində hər üç qrupda nümunə dərsi deyir, tədris etdiyi mövzunun icmalını pedaqoji şuranın üzvlərinə təqdim edirdilər.

Nümunə dərslərinin təhlili seminariyanın direktoru və fənn müəlliminin iştirakı ilə keçirilən konfransda təhlil edilir və protokollaşdırılırdı. Fevral inqilabı sinfi, milli və dini məhdudiyyətləri ləğv etdi, müəllimlər seminariyalarının həyatında pedaqoji dəyişikliklər olundu.

**Seminaristlərin biliyinin yoxlanılması.** İmtahan seminariyada tələbələrin biliklərini yoxlama forması hesab olunurdu. Tədris ilinin sonunda birinci və ikinci kurs tələbələri növbəti mərhələyə keçmək üçün imtahan verməli idilər. Yuxarı sinfə keçidin şərtləri aşağıdakı kimi idi:

1) tədris ilinin bütün rüblərində tələbənin müvəffəqiyyətləri haqqında məlumatların toplanması;

2) ilin sonunda yazılı və şifahi imtahanların verilməsi.

Əsas məqsəd seminaristin keçilən fənləri dərindən mənimsədiyini müəyyənləşdirmək və növbəti kursda tədris prosesində uğur qazanacağına əmin olmaq idi. Yazılı imtahanlar şifahi imtahanların keçirilməsinə 2 həftə qalmış (ən azı 5 gün qalmış) keçirilirdi. Bu imtahanlar elə təşkil edilirdi ki, tələbələrin digər fənləri oxumasına mane olmasın. İmtahanlara hazırlıq məqsədi ilə sinfin tərbiyəçisi tərəfindən bir neçə mövzu və tapşırıq pedaqoji şurada müzakirə olunaraq direktora təqdim olunurdu. Tələbələrin öyrənmədikləri mövzular imtahan suallarına daxil edilmirdi. Onların imtahana düşəcək konkret mövzu və tapşırıqlar haqqında məlumatları olmamalı idi. Tapşırıqlar müəyyən vaxt ərzində cavablandırılırdı. Şifahi imtahanlar isə tədris ilinin sonuna iki həftə qalmış keçirilirdi. İmtahan direktorun, fənn müəlliminin və assistentin iştirakı ilə keçirilirdi. Yazılı imtahanın nəticələri əvvəlcə fənn müəllimi, sonra sinif mürəbbisi, daha sonra direktor tərəfindən yoxlanılır və son qiymət dəftərə, yaxud imtahan vərəqəsinə yazılırdı. Şifahi imtahan zamanı seminaristlər direktor, müəllim və assistent tərəfindən ayrı-ayrılıqda qiymətləndirilirdilər. Yazılı imtahanda olduğu kimi, şifahi imtahanda da son qiymət direktor tərəfindən yazılırdı. İki əsas fəndən qeyri-müvəffəq qiymət alan tələbə şifahi imtahana buraxılmırdı. Yenidən imtahanda iştirak etmək şansı yalnız tətil-

dən sonra verilirdi. İmtahanların nəticələri pedaqoji şurada müzakirə edilir, tələbələrdən kimlərin yuxarı siniflərə keçirilməsi, kimlərin yüksək nailiyyət göstərdiyinə görə mükafatlandırılması haqqında yekun qərar qəbul edilirdi. Tələbələrin il boyu fəaliyyəti və göstərdikləri imtahan nəticələri nəzərə alınırdı. Növbəti kursa keçmək üçün bütün fənlərdən müvəffəq qiymət almaq tələb olunurdu. Yazılı və şifahi imtahanların nəticələri (orta qiymət) vahid balla qiymətləndirilirdi. İl boyu nəticəsi 2,5 olanlar 3; 3,5 olanlar 4; 4,5 olanlar 5 balla qiymətləndirilirdi.

Yuxarı sinfə (kursa) keçməyin şərtləri aşağıdakı kimi idi: ilahiyyat, rus dili, pedaqogikadan orta bal 3-dən, digər fənlərdən 2,5-dən az olmamalı idi. Birinci və dördüncü rüblərdə hər fəndən qiymət, ən azı 3 olmalı idi. Hüsnxət, rəsmxət, musiqi və nəğmə fənlərindən qeyri-qənaətbəxş qiymət alanlar mükafatdan məhrum edilsələr də, şərti olaraq yuxarı sinfə keçirilirdilər. Pedaqoji şuranın iclasında direktor sinifdən-sinfə keçmənin nəticələrini və mükafata layiq görülən tələbələrin adlarını elan edirdi. Seminariyada sinifdən-sinfə keçmək imtahanları 16 mart, 1916-cı ildə ləğv edildi və yuxarı sinfə keçmə tələbənin illik müvəffəqiyyətlərinə görə aparılmağa başlandı, lakin imtahanlar tamam aradan götürülmədi. İllik qiymətlərin aşağı olması səbəbindən yuxarı sinfə keçə bilməyənlərin imtahan verməsinə icazə verilirdi və uğur qazananlar yuxarı siniflərə keçirilirdi.

Seminariyanı bitirənlər sonda pedaqoji şuranın üzvlərinin iştirakı ilə buraxılış imtahanı verirdilər. İmtahana quberniyanın xalq məktəblərinin direktoru dəvət olunurdu. Direktorun icazəsi ilə seminaristlərin valideynləri, digər təhsil müəssisələrinin direktorları və tanınmış şəxslər də imtahanda iştirak edə bilərdilər. İmtahanlar may ayının axırı, iyun ayının birinci yarısında, 3 – 4 həftə müddətində keçirilirdi. Aprel ayında onlara 3 il müddətində keçilən fənlərin proqramı təqdim olunurdu. İlk imtahan əsas fəndən olduğundan ona hazırlaşmaq üçün 2– 4 gün vaxt verilirdi. May ayının 10-dan sonra sinif mürəbbisi hər bir tələbənin 3 il müddətində yazdığı yazı işlərini xronoloji ardıcıllıqla toplayaraq, xüsusi qovluqda pedaqoji şuraya təqdim edirdi. İmtahan başlanana qədər pedaqoji şuranın üzvləri həmin qovluqla tanış olurdular. İmtahanda qiymətləndirmə zamanı çətinlik yarananda həmin nailiyyətlər tələbələrin köməyinə gəlirdi. Yazı işlərinin qaralama variantı seminariyada qalır, ağardılmış variantı tələbələrə verilirdi. Bütün fənlərdən yazı işləri aparılırdı. İmtahanda əsas fənlərə 2–4 saat, digər fənlərə isə 1–2 saat vaxt verilirdi. Buraxılış imtahanı üçün sinif mürəbbisi pedaqoji şuraya 5–10 mövzu təqdim edirdi. Direktor pedaqoji şuranın bəyəndiyi mövzulardan birini seçərək, tələbələrə elan edir, imtahanın başladığı və qurtardığı vaxtı bildirirdi. İmtahan işlərini sinif mürəbbisi yığıb, fənn müəlliminə təqdim edirdi. Son qiymət pedaqoji şurada müzakirə edilirdi. Qiymətləndirmə aşağıdakı kimi aparılırdı: *qənaətbəxş, çox qənaətbəxş, qeyri-qənaətbəxş*. Tələbə üç fəndən qeyri-qənaətbəxş qiymət alardısa, şifahi imtahana buraxılmırdı. Yazı işlərinin ağar-

dılmış variantı tələbələrə şifahi imtahanların keçirilməsinə 5 gün qalmış verilirdi. Buraxılış imtahanlarına qədər ayrı-ayrı fənlərdən tələbələrə məsləhətlər verilir, məşq edilirdi. Digər seminariyalarda olduğu kimi, İrəvan Müəllimlər Seminariyasında da tələbələr pedaqoji şuranın üzvlərinin iştirakı ilə sınaq imtahanları verirdilər. Bu imtahanlar dərs formasında təşkil olunurdu. Dərs direktorun (və ya sinif mürəbbisinin) və bütün tələbələrin iştirakı ilə həmin gün müzakirə edilir və qiymətləndirilirdi. Xüsusi buraxılış-imtahan vərəqələrinə hər bir komissiya üzvü müvafiq qiymətlər yazırdı. Son qrafada isə pedaqoji şuranın son qərarı yazılırdı. İmtahan nəticələri komissiya üzvləri tərəfindən ciddi müzakirə olunduqdan sonra məzunlara *ibtidai* məktəb müəllimi ixtisası verilirdi. Əvvəl tələbələrin əxlaqi yetkinliyi, sonra əqli yetkinliyi, daha sonra ayrı-ayrı fənlərdən nailiyyətləri müzakirə edilirdi. Məzunlara, Xalq Maarif Nazirliyinin təlimatına uyğun olaraq, xüsusi şəhadətnamə təqdim olunurdu. Əxlaqi keyfiyyətləri ilə seçilməyən məzunlara müəyyən edilmiş müddətdə seminariyada oxuması haqqında arayış verilirdi.

**Seminariyanın direktorları.** Xalq Maarif Nazirliyinin əsasnaməsinə əsasən, seminariyanın direktoru vəzifəsinə yalnız pravoslav dini inanclı, ali təhsil müəssisəsinin məzunu təyin edilə bilərdi. İrəvan Müəllimlər Seminariyasının direktorlarını Qafqaz Təlim Dairəsinin popeçiteli təyin edirdi. Direktor həm seminariyanın, həm də seminariyanın nəzdindəki nümunəvi məktəbin bilavasitə rəhbəri idi. Hər iki məktəbin və pansionun bütün işçiləri ona tabe olurdular. Seminariyada pedaqoji şura fəaliyyət göstərirdi. Şuranın üzvləri direktor tərəfindən seçilir, Qafqaz Təlim Dairəsinin popeçiteli tərəfindən təsdiq olunurdu. İlahiyyat, Azərbaycan dili və erməni dili müəllimlərindən başqa, bütün müəllimlər ali təhsilli pravoslavlar idilər. Direktor hər il seminariyanın pedaqoji şurasında illik hesabat verir və həmin hesabatı QTD-nin popeçitelinə göndərirdi. Hesabatda seminariyanın müəllim heyəti, maddi bazası, maliyyə xərcləri, kitabxana fondu, tədris-tərbiyə prosesinin təşkili, tələbələrin inkişaf dinamikası (siniflər üzrə sayı, qəbul olunanlar, müəllim adı alanlar və s.) haqqında məlumatlar öz əksini tapırdı.

Ayrı-ayrı vaxtlarda Yakob Stepanoviç Şuşevski, Aleksey Miropiyev, İvan Andreyeviç Pastuyeviç, Aleksey Martinov Zazuboviç, Sergey Nikolayeviç Streletskiy, Valentin Vasilyeviç Dobrotin İrəvan Müəllimlər Seminariyasının direktoru olmuşlar. Adlarını qeyd etdiyimiz bu şəxslərin bəziləri müxtəlif vaxtlarda həm Zaqafqaziya Müəllimlər Seminariyasının, həm də İrəvan Müəllimlər Seminariyasının direktoru olmuşdular.

**Seminariyanın azərbaycanlı müəllimləri.** İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dili müəllimi vəzifəsində 1881–1897-ci illərdə Axund Məmmədbağır Qazızadə, 1898–1903-cü illərdə Rəhim Xəlilov, 1904–1909-cu illərdə Həmid bəy Şahtaxtinski, 1910–1917-ci illərdə Həmid bəy Şahtaxtinski, şəriət müəllimi vəzifəsində 1881–1911-ci illərdə Axund Məmmədbağır Qazızadə,

1912–1917-ci illərdə Axund Əbülhəsən Qazızadə işləmişdir. İrəvan Müəllimlər Seminariyasının məzunu olan Həbib bəy Səlimov (Azərbaycan Xalq Cümhuriyyətinin generalı) az bir müddət seminariyada gimnastika (fiziki tərbiyə) müəllimi kimi fəaliyyət göstərmişdir.

**Seminariyanın azərbaycanlı məzunları.** İrəvan Müəllimlər Seminariyasının 1884-cü ildə 5, 1885-ci ildə 9, 1886-cı ildə 14, 1887-ci ildə 6, 1888-ci ildə 10, 1889-cu ildə 13, 1890-cı ildə 12 nəfər azərbaycanlı məzunu olub. Bu illər ərzində 69 nəfər ibtidai məktəb müəllimi adını alıb (Erm. Pes. TDA). Məzunların 39 nəfəri İrəvan – Yelizavetpol, 2 nəfəri Bakı və Dağıstan, 1 nəfəri Kutaisi, 1 nəfəri Stavropol məktəblərinə göndərilmişdi. 1891-ci ildə seminariyanın 12, 1892-ci ildə 4, 1893-cü ildə 5, 1894-cü ildə 9, 1895-ci ildə 14 nəfər məzunu olub (Erm. Pes. TDA). 1881–1895-ci illərdə seminariyanın 12 buraxılışı olub ki, bu buraxılışda 123 nəfərə ibtidai məktəb müəllimi adı verilib. Onlardan 25 nəfəri azərbaycanlı, 67 nəfəri erməni, 8 nəfəri rus, 2 nəfəri dağlı, 10 nəfəri digər millətlərin nümayəndələri olmuşlar. 1895–1915-ci illərdə İrəvan Müəllimlər Seminariyasını 38 nəfər, 1916-cı ildə 19 nəfər, 1917-ci ildə 22 nəfər, 1918-ci ildə 23 nəfər azərbaycanlı bitirib (Erm. Pes. TDA).

Seminariyanın 20-ci buraxılışı 1903-cü ildə, 30-cu buraxılışı 1913-cü ildə olmuşdur. XIX əsrin sonlarında Cənubi Qafqazda işləyən kənd məktəblərinin müəllimləri və müdirlərinin xeyli hissəsi müxtəlif illərdə həmin seminariyada ekstern yolu ilə imtahan verərək, müəllimlik hüququ qazanmışdılar. Seminariyanın pedaqoji şurasının qərarına əsasən, 1895-ci ildə Cəlil Mirzəyev, Tağı bəy Səfiyev, Məmməd bəy Qazıyev, 1902-ci ildə isə İbadulla bəy Muğanlinski, Cabbar Məmmədov, Şamdan Mahmudbəyov və başqalarına “kənd müəllimi” adı verilmişdi. Bu nəcib işin təşəbbüsçüsü və təşkilatçısı qocaman maarif xadimi axund Məmmədbağır Qazızadə olmuşdur. Məzunların təyinat üzrə kənd məktəblərində işləməsi məcburi idi. Seminariyanın 1910-cu il məzunu Mehdi Kazımova verilən sənəddən aydın olur ki, o, təyinat üzrə 6 il işləməyə borcludur, əks halda xəzinəyə 520 rubl. ödəməlidir.

Əhməd bəy Qazıyev, Əli Əşrəf Qazıyev, Həsən bəy axund Molla Xəlil bəy oğlu Qazıyev, Fərəməz Mahmudbəyov, Yusif bəy Qazıyev (Qazızadə), Məmməd bəy Əli bəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Həsən Nəsirbəyov, Saleh Məşədi Teymur oğlu Güllücinski, Ağa bəy Firudinbəyov (Ağa bəy Rəhim bəy oğlu Firudinbəyov), Abbas Qədimov, Abbas Allahverdi oğlu Qədimov, Əli Sultanov, Fərrux Ağakişibəyov, Əli Cəlilzadə, Mirzə Bağır Əliyev, Şıxəli bəy Firudinbəyov, Cəfər bəy Cəfərbəyov, İbrahim Şahtaxtlı, Vahid Musabəyov, Rəşid bəy İsmayılov, Həbib bəy Səlimov, İsmayıl bəy Şəfibəyov, Mirzə Abbas Məhəmmədzadə, Cabbar Məhəmmədzadə, Hüseynəli bəy Rüstəmbəyov, Tağı bəy Səfiyev, Haşım bəy Nərimanbəyov, Şamil Mahmudbəyov, Həmid bəy Şahtaxtinski,

İbadulla bəy Muğanlinski və b. ayrı-ayrı vaxtlarda seminariyanın məzunları olmuşlar. Türkiyənin görkəmli rəssamlarından olan İbrahim Səfi də həmin seminariyanı bitirmişdir.

## Nəticə / Conclusion

**Məkrli erməni siyasəti və İrəvan Müəllimlər Seminariyasının acı taleyi.** İrəvan Müəllimlər Seminariyası şəhərdə yalnız təhsil ocağı deyil, həm də elm və mədəniyyət mərkəzinə çevrilmişdi. Seminariyada azərbaycanlılarla yanaşı, demoktarik fikirli rus, erməni və ukraynalı müəllimlər də fəaliyyət göstərirdilər. 1881-ci ildən 1914-cü ilə qədər İrəvan Müəllimlər Seminariyasını 63 nəfər azərbaycanlı bitirmişdi. İrəvan Müəllimlər Seminariyasının direktoru V.V.Dobrotinin 1918-ci ildə yazdığı hesabatdan aydın olur ki, 1915/16-cı tədris ilində seminariyanı 19 nəfər, 1916/17-ci tədris ilində 22 nəfər, sonuncu – 1917/18-ci tədris ilində isə 23 nəfər azərbaycanlı bitirmişdi. Ümumiyyətlə, üç il ərzində seminariyanı 316 nəfər bitirmişdi ki, onlardan 64 nəfərini azərbaycanlılar, 2 nəfərini isə türklər təşkil edirdi.

1915-ci ildə İrəvan Müəllimlər Seminariyası Armavirə köçürüldü və 1918-ci ilə kimi orada fəaliyyət göstərdi. Həmin dövrdə seminariyaya B.B.Dobrotin rəhbərlik edirdi. Seminariyada 3 ilahiyyat müəllimi, 9 fənn müəllimi və 1 həkim çalışırdı. Azərbaycan dili fənnini Mirzə Cabbar Məmmədov, şəriət fənnini isə axund Məmmədbağır Qazızadə tədris edirdi. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə səbəbindən seminariya fəaliyyətini dayandırdı, müəllimlərin və tələbələrin bir qismi amansızcasına qətlə yetirildi, sağ qalanlar isə doğma yurdlarını tərk edərək, Türkiyə və Azərbaycana pənah apardılar. Çar Rusiyasının bilavasitə dəstəyi ilə qədim Azərbaycan torpağında yaradılan İrəvan quberniyasının əsasında RSFSR-in köməyi ilə ilk erməni dövləti (Ararat) yaradıldı. Bu torpağın qədim sakinləri – azərbaycanlılar isə öz vətənlərində azsaylı xalqlardan birinə çevrildilər. Ermənistan K(b)P MK-nın nəzdində fəaliyyət göstərən azsaylı xalqlar şöbəsinin müdiri Bala Əfəndiyevin, Xalq Maarif Komissarlığının "Azlıqda qalan millətlər" bürosunun rəhbəri Mehdi Kazımovun, "Zəngi" qəzetinin məsul redaktoru Mustafa Hüseynovun və digər milli ziyalıların iradəsi və təkidli tələbləri sayəsində 1924-cü il, oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı. Bir il sonra İrəvan Türk Pedaqoji Texnikumuna böyük siyasətçi və dövlət xadimi Nəriman Nərimanovun adı verildi. Məqsəd azərbaycanlıların təhsil aldığı məktəbləri ibtidai sinif müəllimləri ilə təmin etmək idi, lakin İrəvan Müəllimlər Seminariyasının ənənələrini yaşatmaqla bölgədə əbədi-mədəni və təhsil mühitinin formalaşmasında, inkişafında mühüm rol oynayan Türk Pedaqoji Texnikumu

ilk vaxtlardan böyük çətinliklərlə üz-üzə qaldı. 1949-cu ildə isə azərbaycanlıların indiki Ermənistan ərazisindən kütləvi deportasiyası ilə əlaqədar olaraq Xanlar rayonuna köçürüldü... Beləliklə, azərbaycanlıların indiki Ermənistan ərazisindən – Qərbi Azərbaycandan kütləvi deportasiyasına zəmin hazırlandı və bu deportasiya 1988-ci ilin qarlı-şaxtalı noyabr–dekabr aylarında həyata keçirildi...

Millət yaratdığı şərəfli tarixi ilə özünü ifadə edir. İndi yadlara, yağılara qalan qədim İrəvan şəhərində 140 il bundan əvvəl fəaliyyətə başlayan müəllimlər seminariyası təhsil və pedaqoji fikir, maarifçilik, milli mədəniyyət tariximizin və kimliyimizin parlaq səhifələrindən birini təşkil edir.

İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin keçirilməsi ilə bağlı sərəncamı imzaladığına görə prezident İlham Əliyevə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Güman edirəm ki, bu sərəncam Azərbaycanın təhsil tarixinin şərəfli bir səhifəsinin daha ətraflı öyrənilməsinə, tədqiq və təbliğ olunmasına təkan verəcəkdir.

**Məqalənin aktuallığı.** Çar Rusiyasının, tarixin sonrakı dövrlərində isə Sovet dövlətinin Azərbaycan xalqına qarşı əsl münasibəti uzun illər gizli saxlanılmış, tədqiq olunmamışdır. Bu cəhətdən məqalədə qoyulan problemlər, tədqiq olunan məsələlər bu gün də aktualdır və geniş tədqiqatlar tələb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə çar Rusiyasının, sonra isə Sovet (Rusiya) dövlətinin tərkibində olan xalqlara, o cümlədən Azərbaycan xalqına olan ikili münasibəti təhlil olunur. Bu ikili yanaşma erməni-müsəlman-xristian münasibətlərində dəqiq tarixi faktlarla sübuta yetirilir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə Azərbaycanın təhsil tarixi ilə maraqlanan tədqiqatçılar, elmi işçilər, müəllimlər, tələbələr üçün geniş və qiymətli məlumat mənbəyidir. Onlar bu məqalədən Azərbaycan təhsil tarixi haqqında biliklərini artırmaq, dünyagörüşlərini formalaşdırmaq üçün istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr, 2021-ci il tarixli Sərəncamı. "Xalq" qəzeti, 29 dekabr, 2021-ci il.
2. Allahverdiyev C. Cənubi Qafqazda dünyəvi təhsil verən məktəb. https://www. yeni azerbaycan.com/Sosial_e65324_az.html
3. Azərbaycan Respublikası DTA. F.312, siy.1, iş 279, v.6.
4. Cəfərov C., Allahverdiyev C. (2017). İrəvanda milli maarifçilik mühiti. Bakı, "Şərq-Qərb", 439 s.
5. Ermənistan Respublikası DTA. f.197.iş 5,v.9.
6. Ermənistan Respublikası DTA. f.3.siy.1.iş 209,v.2.
7. Ermənistan Respublikası DTA. f.3.siy.3.iş 151,v.2,5.
8. Əhmədov H. (2014). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, "Elm və təhsil".
9. Rüstəmov F. (2022). Milli müəllim kadrları hazırlayan təhsil ocağı. "Azərbaycan müəllimi" qəzeti, 7 və 20 yanvar.
10. İbrahimov N. (1982). İrəvan Müəllimlər Seminariyası. "Azərbaycan məktəbi" jurnalı, №7.
11. İrəvan xanlığı. (2010). (Elmi redaktoru AMEA-nın müxbir üzvü, prof. Y.Mahmudovdur.). Bakı, "Azərbaycan" , 617 s.
12. Məmmədov İ., Əsədov S. (1992). Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, "Azərbaycan".
13. Rüstəmov F. (2006). Pedaqogika tarixi. Bakı, "Elm və təhsil", 748 s.
14. Voronov İ. (1869). (sostavitel). Sbornik statisticheskix svedeniy o Kavkaze. Tom I. Tiflis.
15. Kavkazskiy kalendar na 1913 g. (1912). Spravochnaya kniga pog. Tiflis.
16. Kratkiy putevoditel po Kavkazu. (1912). (pod red. A.A.Elzentera, N.P.Stelmashuka. Izdan po rasporyajeniyu Namestnika ego Imperatorskago Velichestva na Kavkaze. Tiflis, 649 s.
17. Kavkazskiy kalendar na 1896 g. (1885). Glavnoye upravleniye glavnonachalstvuyushego grajdanskoyu chastyu na Kavkaze, Kavkazskiy statisticheskiy komitet. Tiflis, 886 s.
18. Kavkazskiy kalendar. (1912). Tiflis, na 1913 g. 68-y g. s prilojeniyem: "Spravochnaya kniga po gorodu Tiflisu, 893 s.
19. Kavkazskiy kalendar. (1881). Tekst na 1882 god. Tiflis.
20. Klunniy P. (1908). Okonchivshiye uchitelskiye instituti stuchatsya v zakrituyu dver universiteta. "Russkaya shkola", № 3, s. 116–117.

21. Prugavin A.S. (1898). Instruktsii dlya uchitelskix seminariy Ministerstva Narodnogo Prosvesheniya: Utv. Ministerstvom Narodnogo Prosvesheniya 4-go iyulya, 1875 g./ A.S.Prugavin //Zakoni i spravochniye svedeniya po nachal'nomu narodnomu obrazovaniyu. — SPb., 806 s.
22. Rudolf N.F. (1914). Obzor deyatelnosti Kavkazskogo uchebnogo okruga (1908-1912 gg.). Tiflis, 231 s.
23. Sbornik postanovlenniy po Ministerstvu narodnogo prosvesheniya tsarstvovaniye imperatora Aleksandra II. Tom 7, 1877-1881. S.Peterburg, 1883.
24. Shopen I.I. (1852). Istoricheskiy pamyatnik sostoyaniya Armyanskoy oblasti v epoxu yeyo prisoyedineniya k Rossiyskoy imperii. V tip. Imp. Akademii nauk, 1236 s.
25. Shavrov N. (1901). Novaya ugroza russkomu delu v Zakavkaze: predstoyashaya rasprodaja Mugani inogradtsam. SPb., s.59-61.
26. Voytexovskaya M.P. (2013). Istoriya pedagogicheskogo obrazovaniya v Rossii: uchebnoye posobiye. Chast I / M. P. Voytexovskaya. – Tomsk: Izdatelstvo Tomskovo gosudarstvennogo pedagogicheskogo universiteta, 112 s.